Azərbaycan.- 2021.- 30 aprel. S. 1; 6.



# Yüksək texnologiyalara keçidin ana sütunu - əqli mülkiyyət

Müharibəni qələbə ilə başa vuran Azərbaycan ötən ilin sonundan yeni dövrə - yüksək texnologiyalara keçidə start vermişdir. Bu qərar bəzilərinə bir qədər müəmmalı və çətin görünə bilər. Çünki belə qəbul olunub ki, yüksək texnologiyalara keçid inkişaf etmiş dövlətlərin qismətinə yazılıb. Bu baxımdan Azərbaycan kimi müstəqilliyini ötən əsrin sonunda elan edən, üzücü münaqişəyə yenicə son qoyan dövlətin belə mükəmməl perspektivlərə səmtlənməsinə inanmaq bəlkə o qədər də asan deyil.

Lakin ölkə iqtisadiyyatında tətbiq edilən yeni texnologiyalar, uğurla həyata keçirilən layihələr, işğaldan azad edilmiş ərazilərdə “ağıllı şəhər” və “ ağıllı kənd”lərin sürətlə reallaşdırılması sübut edir ki, biz inamla qarşıya qoyulan məqsədlərə sarı gedirik.

Son illər alimlərimizin qazandığı dünya miqyaslı nailiyyətlər Azərbaycanın böyük potensial imkanlara malik olduğunu təsdiqləyir. Aydın görünən odur ki, dövlətimiz yüksək texnologiyalara keçidi inamla həyata keçirmək üçün ciddi elmi potensiala əsaslanır.

Bir neçə gün əvvəl İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) ADA Universiteti ilə birlikdə görkəmli alim Lütfi Zadənin anadan olmasının 100 illiyinə həsr olunmuş “Lütfi Zadənin dünya iqtisadiyyatı və elminin inkişafına töhfələri” mövzusunda elmi konfrans keçirmişdir. Tədbirdə görkəmli alimin elm sahəsindəki nəzəriyyələrinin sənayenin inkişafına, texnologiyanın tərəqqisinə, ümumilikdə dünya elminə və iqtisadiyyatına verdiyi töhfələr geniş müzakirə edilmişdir.

***Ardı 6-cı səh.***

# Yüksək texnologiyalara keçidin ana sütunu - əqli mülkiyyət

Əvvəli 1-ci səh.

İİTKM-in icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı Lütfi Zadə irsinin iqtisadiyyatın inkişaf etdirilməsində potensial imkanlarını və iqtisadi artımın Lütfi Zadə nəzəriyyərələrinə uyğun inkişaf perspektivlərini yüksək qiymətləndirir.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov belə hesab edir ki, müasir sənaye, dayanıqlı iqtisadiyyat və innovativ cəmiyyət quruculuğunda Lütfi Zadə irsinin rolu əvəzsizdir.

Prezident İlham Əliyev tərəfindən Lütfi Zadə ölkənin ali mükafatlarından olan "Dostluq" ordeninə layiq görülmüş, görkəmli alimin 100 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalanmışdır. Bu, Azərbaycan xalqının və dövlətinin alimin həyat və fəaliyyətinə verdiyi yüksək qiymətdir.

Tarixi şəxsiyyətlərdən olan dünya şöhrətli alim Lütfi Zadə öz nəzəriyyələri ilə elm tarixində mühüm dəyişikliklərin baş verməsinə ciddi təsir etmişdir. İİTKM-in icraçı direktoru V.Qasımlı qeyd edir ki, azərbaycanlı olduğunu daim fəxrlə bildirən alim öz nəzəriyyələri ilə elm sahələrinə yeni yanaşmalar gətirmişdir. Dünya miqyasında yazılarına ən çox istinad edilən alimlərdən biri olan Lütfi Zadə bir çox elmi məktəblər və laboratoriyaların qurulmasına səbəb olmuş, dünya elminə bir neçə fundamental elmi nəzəriyyələr təklif etmişdir. Bu nəzəriyyələrin içində əsas və geniş yayılmış nəzəriyyə qeyri-səlis məntiq nəzəriyyəsidir. Həmçinin Lütfi Zadənin "Sistemlər nəzəriyyəsi", "Optimal süzgəclər nəzəriyyəsi", "Sözlə işləyən kompüter nəzəriyyəsi", "Təəssüratlar nəzəriyyəsi" kimi elmi işləri dünya elminin inkişaf etdirilməsində əvəzedilməz rol oynamışdır. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan yüksək texnologiyalara keçid dövründə yalnız müasir dünya təcrübəsinə yox, həm də mövcud elmi potensialına söykənir.



Ölkədə eyni zamanda dövlətin ciddi qayğısı sayəsində gənc və istedadlı alimlərin yeni nəsli yetişir, onların ölkə iqtisadiyyatına qoşulması, bilik və istedadlarını reallaşdırması üçün ciddi addımlar atılır. Belə gənclərdən biri Reyhan Camalovadır. Reyhan "Forbs" jurnalı tərəfindən dünyanın yaşı 30-dan az olan ən gənc alimləri sırasına daxil edilmişdir və Dünya təqaüdünə layiq görülmüş 15 nəfərdən biridir. Onun arzusu Azərbaycan üçün dəyərli alim olmaqdır. İnamla deyir ki, hər çəkilən zəhmətin bir bəhrəsi var.

Ölkənin gələcəyini belə gənclər təyin edəcək. Artıq Azərbaycanda ikinci dəfə "EY İlin İş Adamı" müsabiqəsi keçirilmişdir. KOBİA-nın strateji tərəfdaşlığı ilə keçirilən müsabiqəyə BP şirkəti və Azərbaycan Beynəlxalq Bankı sponsor dəstəyi göstərmişlər. Müsabiqənin "İnnovasiya" nominasiyasında FRAZEX şirkətindən Camal Xasayev, "Sosial təsir" nominasiyasında LANDAU məktəbindən Emil Leznik, "Ətraf mühitə müsbət təsir" nominasiyası üzrə Bioropean şirkətindən Emin İlyas və "Aqrar sahədə davamlılıq və regional inkişaf" nominasiyası üzrə Chabiant Winery şirkətindən Fərid Axundov təltif olunmuşlar.

Resm Jewelry şirkətinin rəhbəri Rəsminə Qürbətova isə "EY İlin İş Adamı" müsabiqəsinin qalibi kimi dünyanın ən yenilikçi iş adamları ilə mübarizəyə qoşulacaq.

Ölkəmizdə gənc alimlərin, ixtiraçıların və uğurlu iş adamlarının sayı kifayət qədərdir. İnnovasiyaların, yüksək texnologiyaların tətbiqi, yeni alimlər və sahibkarlar nəslinin formalaşması Prezident İlham Əliyevin davamlı inkişaf siyasətinin aparıcı istiqamətlərindəndir. Dövlət başçısının müəyyən etdiyi strateji xəttin ardıcıl reallaşması və bu məqsədlə həyata keçirilən sistemli islahatlar uğurlu bəhrəsini verməkdədir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***